**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ERTAŞ HASAN OĞLU SOFUOĞLU**

# YENİYETMƏLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA İSLAM DƏYƏRLƏRİNDƏN İSTİFADƏ ÜZRƏ İŞİN SİSTEMİ

5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı – 2014**

Dissertasiya Bakı Slavyan Universitetinin pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Kərim Alı oğlu Məmmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Əməkdar müəllim*

**Mircəfər Mirməsi oğlu Həsənov**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor*
*Əməkdar müəllim*

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə "_05___" _12_ 2014-cü ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___" __________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,dosent*

## Tədqiqatın ümumi səciyyəsi

**Mövzunun aktuallığı.** Mövcud elmi ədəbiyyatda yetişən nəslin hərtərəfli inkişafı üçün, hər şeydən əvvəl, onların elmi dünyagörüşünün formalaşması vacib hesab edilir. Elmi dünyagörüşünün formalaşmasının imkanları, formaları, cəhətləri, tərəfləri, vasitələri çoxdur. Onlardan ən başlıcaları isə islam dəyərləridir. İslam dəyərlərinin əsasında "Qurnai-Kərim" dayanır. Bu müqəddəs kitab bütün insanları halal zəhmətə, ədalətli, sədaqətli, mərifətli, şərafətli, fəzilətli, ismətli, qeyrətli, mübariz olmağa, başqa sözlə desək mənəvi cəhətdən daha sağlam olmağa çağırır. Elmi dünyagörüşü qazanmağın ilk mənbəyi hesab edilən möhtəşəm və müqəddəs "Qurani-Kərim" insanları elm və tərəqqiyə ibrətlə baxıb düşünməyə səsləyir. O, insanın ədalətli, doğruçul, gözütox, mərhəmətli, yaxşılıq etməyi bacarmağa, ədəb qaydalarını gözləməyə, bərabərliyi bərqərar etməyi öyrətdi. "Qurani-Kərim" eləcə də tərbiyə elmi üçün çox vacib olan sadəliyi, nəzakəti, hörməti, xeyirxahlığı gənc nəslə öyrətməyi vacib hesab edir.

"Qurani-Kərim" insanları Allaha dua etməyə, böyük yaradanın onlara göndərdiyi elmi əsasları əxz etməyə çağırdığı üçün ona həmişə böyük ehtiram və məhəbbətlə yanaşmağı tövsiyə edir. Şərqin böyük mütəfəkkiri Nəsirəddin Tusi "Qurani-Kərim"ə istinad edərək bütün elmlərin ilahiyyat elmindən yarandığını vurğulayır və qeyd edir ki, tibb elminin əsas dörd ünsürüdür: bu məsələni təbiət elmində aydınlaşdırmalı, təbib bunu təbiət elmindən öyrənməli və öz sənətində ondan bacarıqla istifadə etməlidir. Həndəsə elminin əsasları aralarında tənasüb olan rabitəli ölçülərdir ki, onların növü üçdən çox deyildir. (xətt, səth, həcm, cisim). Bunun nə demək olduğu təbiətin davamı haqqında elm adlanan ilahiyyat elmində şərh edilir və mühəndis bunları o elm sahiblərindən öyrənib öz sənətində işlətməlidi. Təbiətin ardı haqqında elm ona deyirlər ki, bütün elmlərin sonu gəlib ona müncər olur, onda aydın olmayan əsaslar ola bilməz, ondan bəhs edilən bütün məsələlər tam və kamil olur, bu elmin tam və kamilliyi də bununla müəyyən edilir

Şərqin bütün alimləri, Qərbin isə bir sıra alimləri də bütün elmlərin əsaslarını səmavi kitablarda, xüsusilə "Qurani-Kərim"də axtarmışlar. Şərqin və bütün türk dünyasının görkəmli simaları olan Atillanın, Əl Fərabinin, Əbu Hənifə İbn Sabitin, Malik ibni Hənbəl Əş-Şəhbayinin, Əbdülhəsən Mərzban oğlu Bəhmənyar Əl-Azərbaycaninin, Məhəmməd Füzulinin, Saib Təbrizinin, Əssar Təbrizinin, Siracəddin Urməvinin, Səfiyyəddin Urməvinin, Abbasqulu ağa Bakıxanovun, Üzeyir Hacıbəylinin, Mustafa Kamal Atatürkün, Heydər Əliyevin əsərlərində yetişən nəslin elmi

dünyagörüşünün inkişafında milli-mənəvi dəyərlərdən və xüsusilə islam dəyərlərindən yetərincə istifadə olunmasına dair çox qiymətli fikirlər vardır. Bütün bunlar isə onu deməyə əsas verir ki, gənc nəsilin, xüsusilə yeniyetmələrin elmi dünyagörüşünün formalaşdırılması üçün islam dəyərlərindən istifadə olunmasına, onlardan mütərəqqi üsulların köməyi ilə bəhrələnməyə çox zəruri ehtiyac vardır. Çünki islam dəyərləri insanları elmə, mədəniyyətə, əxlaqi saflığa, həyat hadisələrinə ədalətlə yanaşmağa, haqq işini müdafiə etməyə, hümanist mövqe tutmağa, sülhü, əmin-amanlığı, ədaləti bərpa etməyə istiqamətləndirir.

Bu baxımdan islam dəyərlərindən istiadə etməklə yeniyetmələrin elmi dünyagörüşlərinin və eləcə də mənəvi tərbiyəsinin formalaşdırılması yetişən nəslin həyata, gələcəyə hazırlanması kimi dəyərləndirilməlidir.

Təəssüf ki, 71 il hökm sürən kommunist rejimi islam dəyərlərini dini ehkam kimi təqdim etmiş, onları mövhumat, xürafat, tərki-dünyalıq adlandırmış, "Qurani-Kərim"i oxumağı yasaq etmiş, onu oxuyub təbliğ edənləri isə represiyalara uğratmışdır. Represiyaya uğrayanların içərisində isə keçmiş SSRİ respublikalarında yaşayan azərbaycanlılar, türkmənlər, qazaxlar, özbəklər, taciklər, qırğızlar, osetinlər, çeçenlər, inquşlar, dağıstanlılar, çərkəzlər, tatarlar, başqırdlar, abxazlar, acarlar, sibir türkləri, altay türkləri və bir sıra türk etnikləri daha çox üstünlük təşkil etmişdir. Kommunist rejiminin islam dəyərlərinə qarşı səlib yürüşü sadaladığımız respublika və regionlarla məhdudlaşmamış, Şərqin və Qərbin bir sıra ölkələrində, o cümlədən Çində, Hindistanda, Yaponiyada, Əfqanıstanda, İraqda, Balkanlarda və Avropanın bir sıra ölkələrində də öz təsirini göstərmiş və insanları mənəvi cəhətdən şikəst etmişdir.

SSRİ dağıldıqdan sonra onun tərkibindəki bütün türkdilli xalqlar müstəqillik qazanmaqla yanaşı, yenidən öz milli-mənəvi dəyərlərinə qovuşdular. Bu xalqlar içərisində islam dəyərlərinin, onların mütərəqqi adət və ənənələrinin tərbiyəvi əhəmiyyətini dövlət səviyyəsində ilk dəfə vacib hesab edən azərbaycanlılar oldu.

Azərbaycan Respublikasının həm Konstitusiyasında, həm Təhsil Qanununda, həm də təhsil islahatına dair bir sıra direktiv sənədlərdə yetişən nəslin islam dəyərlərindən bəhrələnmələri rəsmi qaydada təsbit olunurdu.

Azərbaycan xalqının böyük öndəri, ölməz Atatürk ideyalarına daim böyük hörmətlə yanaşan Heydər Əliyev bir sıra çıxışlarında milli mənəvi dəyərlərin, həmçinin islam dəyərlərinin toplanması, öyrənilməsi, qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi ilə bağlı təhsil işçilərinə, müəllimlərə, bu sahədə çalışan mütəxəssislərə çox dəyərli tövsiyələr verdi.

Bu gün Türkiyə Cümhuriyyəti kimi, Azərbaycanda da milli-mənəvi dəyərlərdən, xüsusilə islam dəyərlərindən yetişən gənc nəslin əxlaqi və mənəvi cəhətdən saflaşması naminə təlim-tərbiyə müəssisələrində o cümlədən məktəbdənkənar tərbiyə müəssisələrində istifadə olunmasına xüsusi şərait yaradılmışdır. Bütün bunlar isə bizim gənc nəsildə elmi dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə probleminin həlli istiqamətinə yönəltdiyimiz elmi-tədqiqat mövzumuzun aktuallığını daha da artırır.

İstər Türkiyə Cümhuriyyətində, istərsə də Azərbaycan Respublikasında bu problemin ilahiyyat alimləri tərəfindən geniş şəkildə təqdir edilməsi daha çox müşahidə edilsə də, məsələnin pedaqoji aspektdə işlənməsinə az təsadüf edilir.

Azərbaycanın bir sıra pedaqoq, metodist, psixoloq alimlərindən Mehdi Mehdizadə, Mərdan Muradxanov, Nurəddin Kazımov, Əliheydər Həşimov, Yusif Talıbov, Əjdər Ağayev, Sərdar Quliyev, Fərahim Sadıqov, Akif Abbasov, Hikmət Əlizadə, Nübar Müxtarova, Əmrulla Paşayev, Fərrux Rüstəmov, Ağahüseyn Həsənov, Əbdül Əlizadə, Ramiz Əliyev, Yəhya Kərimov və başqaları problemin iki istiqamətdə həllinə, yəni şagirdlərin elmi dünyagörüşlərinin inkişafı və milli mənəvi dəyərlərdən istifadə məsələlərinə ayrı-ayrılıqda toxunsalar da, gənc nəsildə elmi dünyagörüşünün formalaşdırılmasına islam dəyərləri fonunda toxunmamışlar. Bütün bunları nəzərə alaraq biz tədqiqatmızı "Yeniyetmələrin elmi dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə üzrə işin sistemi" probleminə həsr etmişik.

**Tədqiqatın obyekti** gənc nəslin elmi dünyagörüşünün və milli-mənəvi tərbiyəsinin formalaşmasına xidmət edən islam dəyərləridir.

**Tədqiqatın predmeti** islam dəyərlərindən istifadə etməklə gənc nəslin elmi dünyagörüşünün formalaşdırılması prosesidir.

**Tədqiqatın fərziyyəsi.** Tədqiqatın elmi fərziyyəsi aşağıdakı şəkildə müəyyənləşdirilmişdir:

- islam dəyərlərinin mahiyyəti, məqsəd və əhəmiyyəti düzgün müəyyənləşdirilərsə;
- təlim prosesində onlardan istifadənin imkanları və səmərəli yolları düzgün müəyyənləşdirilərsə;
- dərsdənkənar, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə islam dəyərlərinin hərtərəfli öyrənilməsinin pedaqoji-psixoloji əsasları üzə çıxarılarsa;

- pedaqoji prosesdə islam dəyərləri ilə tanışlığın elmi-pedaqoji mexanizmi düzgün qurularsa, gənc nəslin elmi dünyagörüşünün və milli-mənəvi keyfiyyətlərinin formalaşmasına nail olmaq olar.

**Tədqiqatın məqsədi** yeniyetmələrin elmi dünyagörüşünün formalaşdırılması üçün islam dəyərlərindən istifadənin imkanlarının, forma və yollarının, vasitələrinin üzə çıxarılmasından ibarətdir.

Nəzərdə tutulan məqsədi həyata keçirmək üçün aşağıdakı **vəzifələrin** həlli nəzərdə tutulmuşdur.

- "islam dəyərləri" və "elmi dünyagörüşü" anlayışlarına aydınlıq gətirmək;
- islam dəyərlərinin və milli-mənəvi normaların mahiyyətini, məzmununu, elmi-nəzəri əhəmiyyətini aydınlaşdırmaq;
- problemin ədəbiyyatda qoyuluşunu araşdırmaq, təhlil edib ümumiləşdirmək;
- məsələnin məktəb təcrübəsində vəziyyətini öyrənmək;
- təlim prosesində gənc nəslin elmi dünyagörüşünü və milli-mənəvi tərbiyəsini formalaşdırmaq məqsədilə islam dəyərlərinə dair didaktik materialların düzgün seçilməsi və onların tətbiqi imkanlarının düzgün müəyyənləşdirilməsinə nail olmaq;
- yeniyetmələrin elmi dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadənin imkanlarını üzə çıxarmaq məqsədilə pedaqoji eksperimentin təşkili üçün eksperimental və kontrol məktəblərin gücündən istifadə etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt və hadisələri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq edilən prinsiplərin, metodların, vasitələrin və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatda istifadə edilən əsas metodlar.**

1. **Nəzəri təhlil.** Tədqiqatla bağlı pedaqoji ədəbiyyat, habelə islam dəyərləri ilə bağlı olan yazılı mənbələr təhlil edilmişdir.

2. **Məktəb sənədlərinin öyrənilməsi.** Azərbaycan respublikasının 20, Türkiyə Cümhuriyyətinin 10 məktəbində yuxarı sinif şagirdlərinin elmi dünyagörüşlərinin formalaşmasında islam dəyərlərindən istifadəyə dair məktəb rəhbərlərinə dair sənədlər və pedaqoji şuraların sənədləri araşdırılaraq təhlil edilmişdir.

3. **Müşahidə.** Bakının 5, 132 saylı, M.Mehdizadə adına 4, M.Ə.Sabir adına 5, Masallı rayonunun 3 saylı, Lənkəran şəhərinin 2 saylı, habelə Türkiyə Cümhuriyyətinin İqdır şəhər 1, 2, 4, 6 saylı, İstanbul şəhər 9, 18, 200, 216 saylı məktəblərində müşahidələr aparılmış, məktəb və sinif

rəhbərlərinin, müəllim və şagirdlərin islam dəyərlərinə olan münasibətləri öyrənilmişdir.

4. **Müsahibə.** Adı çəkilən məktəblərdə 650 şagirdlə, 112 məktəb rəhbərilə, 220 müəllimlə, 225 valideynlə qabaqcadan hazırlanmış suallar əsasında müsahibə aparılmışdır.

5. **Anket sorğusu.** Tədqiqat planına uyğun olaraq 115 fənn müəllimi, 20 sinif rəhbəri, 655 şagird və 110 nəfər valideynlə qabaqcadan hazırladığımız suallar əsasında anket sorğusu keçirilmiş, alınan cavablar ümumiləşdirilərək cədvəllərdə öz əksini tapmışdır.

**Pedaqoji eksperiment.** Üç mərhələdən ibarət pedaqji eksperiment keçirilmişdir. Eksperimentin I müəyyənedici mərhələsi 2011-ci tədris ilində, II öyrədici mərhələsi 2012-cü tədris ilində, III yoxlayıcı mərhələsi isə 2013-ci tədris ilində həyata keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq gənc nəslin elmi dünyagörüşünün və mənəvi keyfiyyətlərinin formalaşmasında istifadə olunan islam dəyərlərinin nəzəri və praktik əsaslarını özündə əks etdirən və eksperiment yolu ilə sınaqdan keçirilən elmi sistem müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiya işində pedaqoji prosesin təkmilləşdirilməsi üçün irəli sürülən ideyalar, müddəalar təlim-tərbiyənin nəzəriyyəsini zənginləşdirəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan alınan nəticələr, irəli sürülən ideyalar, müddəalar, tövsiyələr, məsləhətlər, göstərişlər, metodik istiqamətlər məktəb rəhbərlərinə, fənn müəllimlərinə, sinifdənxaric və məktəbdənkənar tədbirlərə rəhbərlik edənlərə, dərnək rəhbərlərinə və valideynlərə gənc nəslin elmi dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə sahəsində praktiki köməklik göstərəcəkdir.

**Tədqiqatın əsas nəticələrinin aprobasiyası.** Tədqiqat materialları dissertasiyanın məzmunu müvafiq fəsil və yarımfəsillərdəki əsas ideyalar bir kitab, 2 tezis, 5 jurnal məqaləsi, İstanbulda və Bakıda keçirilən elmi-praktik konfranslarda çıxışlar vasitəsilə elmi-pedaqoji ictimaiyyətə çatdırılmış, İqdırda 4, 5, İstanbulda 9, 29 saylı, Bakının 54 və Abşeron rayonunun Xırdalan qəsəbəsindəki 3 saylı məktəbin pedaqoji kollektivlərin seminar-müşavirələrində çıxışlar edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 2 fəsil, nəticə təkliflər və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığının əsaslandırılması, işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd-vəzifələri, fərziyyəsi, metodoloji əsası, tədqiqat metodları, elmi yeniliyi, müdafiə çıxarılan müddəaları, nəzəri-praktik əhəmiyyəti, aprobasiyası və strukturu yığcam ifadə olunmuşdur.

**"Yeniyetmələrin dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri**" adlanan birinci fəsil 4 yarımfəsildən ibarətdir.

***"Problemin mahiyyəti*"** adlanan birinci yarımfəsildə problemin əsas mahiyyəti və məzmunu açıqlanır, "dünyagörüşü" və "islam dəyərləri" anlayışları aydınlaşdırılır. Yarımfəslə yekun vurularkən göstərilir ki, islam dəyərləri ilə yaxından tanış olan yeniyetmə şagirdlər aşağıdakı keyfiyyətlərə yiyələnirlər:

- onlar islamın yaranmasının elmi, qneseoloji mahiyyətini öyrənir;
- "Qurani-Kərim"də mövcud olan elmin əsasları haqqında hərtərəfli biliyə malik olur;
- islam dəyərləri vasitəsilə yeniyetmələr Şərqin elmi, mədəniyyəti və incəsənəti, tarixilə yaxından tanış olmaqla müvafiq dünyagörüşünə yiyələnirlər;
- türk və Azərbaycan xalqlarının islama münasibətlərinin elmi mahiyyətini öyrənirlər;
- bir sıra mütərəqqi adət və ənənələrin insanın həyatında oynadığı həlledici rola nəzər salır, onları duyur, qavrayır və qiymətləndirirlər;
- islam dəyərlərinin əxlaqi-mənəvi paklığını dərk edirlər. Beləliklə yeniyetmələr işgüzarlıq, halallıq, xeyirxahlıq, vətənpərvərlik, insansevərlik, əqidəlilik, ədalətlilik, insaflılıq, mürüvvətlilik, sədaqətlilik, mərifətlilik, ailəsevərlik, ağıllılıq, vicdanlılıq, düzlük, doğruçuluq, yamanlığa yaxşılıq, xoş xasiyyətlilik, yaşlılara hörmət, sadəlik, təvazökarlıq, qürurluluq, dönməzlik, əliaçıqlıq, qədirqanlılıq, şükranlıq, qənaətcillik kimi əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnirlər.

***"Problemin elmi-nəzəri mənbələrdə qoyuluşu"*** adlanan ikinci yarımfəsildə məsələnin elmi, pedaqoji, metodik ədəbiyyatda qoyuluşu öz əksini tapmışdır. Yarımfəsildə yeniyetmələrin dünyagörüşü və islam dəyərlərində əxlaq tərbiyəsilə bağlı həm Azərbaycan Respublikasında, həm Türkiyə Cümhuriyyətində, həm də bir sıra xarici ölkələrdə, o cümlədən Rusiyada aparılan tədqiqatlara münasibətin yığcam məzmunu öz əksini tapmışdır. Yarımfəsildə mövcud dərsliklərdə, dərs vəsaitlərində,

monoqrafiyalarda, məqalələrdə yeniyetmələrin dünyagörüşünün formalaşmasında islam dəyərlərinin əhəmiyyətinin qoyuluşu barədə deyilənlər belə yekunlaşdırılır: ənənələri saxlanılan ailələrdə tərbiyənin xüsusiyyətləri və məktəb tərbiyəsində bunların nəzərə alınması yolları, ateist ailələrdən olan məktəblilərdə tərbiyə işinin təşkili məsələlərinin elmi təhlilinə daha geniş yer verilmişdir. Bir sıra müəlliflər həm məqalələrində, həm monoqrafiyalarında, həm də yazdıqları dissertasiyalarda orta ümumtəhsil məktəblərinin təlim-tərbiyə prosesində islam dəyərlərindən istifadə probleminə toxunsalar da, şagirdlərin dünyagörüşünün formalaşdırılmasından söhbət açmamışdır.

Bütün bu deyilənlərdən belə qənaət hasil olur ki, Azərbaycan Respublikasında gənc nəsildə dünyagörüşünün, eləcə də elmi dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə problemi geniş tədqiqata cəlb edilməmişdir. Bütün bunları nəzərə alaraq problemi daha geniş və əhatəli şəkildə tədqiq edərək ümumtəhsil məktəblərində çalışan müəllimlərə kömək edə biləcək bir elmi-tədqiqat işi hazırlamaq məqsədəmüvafiq hesab edilmişdir.

Fəslin ***"Yeniyetmələrin dünyagörüşünün formalaşmasına dair mövcud pedaqoji təcrübənin təhlili"*** adlı üçüncü yarımfəslində Azərbaycan Respublikasının bir sıra şəhər, rayon və kənd məktəblərində aparılan müşahidələrin nəticələri öz əksini tapır. Yarımfəsildə V-IX sinif şagirdlərinin islam dininə olan münasibətlərinin səviyyəsi müəyyənləşdirilmişdir.

Azərbaycanın ayrı-ayrı regionlarında, xüsusilə islam dininə daha çox rəğbət bəslənilən rayonlarda aparılan müşahidələrin nəticələri yarımfəsildə öz əksini tapmışdır. Yarımfəsildə vurğulanır ki, müşahidələrimizi əsasən əhalisi islam dininə daha çox etiqad edən bölgələrimizdə (Masallı, Yardımlı, Lənkəran, Lerik, Astara rayon məktəblərində) Şirvan bölgəsində (Şamaxı, Ağsu, İsmayıllı, Ağdaş), Gəncə, Şəmkir, Tovuz, Aqstafa rayonlarında və Bakı şəhərində apardıq. Məlum oldu ki, cənub bölgəsinin məktəbliləri şiəlik məzhəbini dəstəklədikləri üçün onlar islam dəyərlərindən əsasən Allah, Quran, Peyğəmbər və 12 imamla əlaqədar inanc və əqidəyə üstünlük verirlər. Gəncə və Bakının Suraxanı, Xəzər və Sabunçu rayon məktəblərində də belə meyillər müşahidə olundu. Şirvan bölgəsində isə məktəblilərin 12 imam istisna olmaqla, digər islam dəyərlərinə iman gətirmələri və hörmət bəsləmələri bizə bu problemin məhz bu tərəfilə bağlı müvafiq müqayisələr aparmağa imkan verdi. Topladığımız müşahidə faktları deməyə əsas verir ki, Sovetlər İttifaqı dövründə Azərbaycan Respublikasında adamlarda vahid islam əqidəsi mövcud

olduğu halda, müstəqillik qazandığımız hazırki şəraitdə vahid islam əqidəsi bir neçə istiqamətə yönəlmişdir. Yarımfəsli yekunlaşdıraraq belə bir qənaətə gəlmək olar ki, yetişən gənc nəslin elmi dünyagörüşlərinin formalaşdırılması işində müstəsna rol oynayan islam dəyərlərindən şəhər və kənd məktəblərində istər təlim prosesində, istərsə də dərsdənkənar tədbirlərdə istənilən səviyyədə istifadə olunmadığı üçün şagirdlərin bu dəyərlər barədə məlumatları zəifdir. Şagirdlər bu dəyərlərin elmi mahiyyətini yaxşı dərk etmir, onları insani mənəvi cəhətdən zənginləşdirən mənəvi-dəyərlər kimi tam aydınlığı ilə başa düşmürlər. Bütün bunların isə ən başlıca səbəbi şəhər və kənd məktəblərində çalışan müəllimlərin yeniyetmələrin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan islam dəyərlərinin pedaqoji-psixoloji əsaslarını düzgün müəyyənləşdirə bilməmələri və təlim-tərbiyə prosesində bu dəyərlərdən istifadə etməklə onların təfəkkür səviyyəsinin, idrak fəallığının yüksəlməsinin imkanlarından düzgün istifadə etməyi bacarmamalarından ibarətdir. Ona görə də növbəti yarımfəsillərdə bu barədə daha ətraflı bəhs olunması məqsədəmüvafiq hesab olunur.

Məhz elə ona görə də fəslin sonuncu-dördüncü yarımfəsli problemin pedaqoji-psixoloji əsaslarından bəhs edir. ***"İslam dəyərlərindən istifadə etməklə yeniyetmələrin elmi dünyagörüşünün formalaşması işinin pedaqoji-psixoloji əsasları"*** adlanan bu yarımfəsildə islam dəyərlərindən istifadə etməklə V-IX sinif şagirdlərinin pedaqoji əsasları ilə yanaşı psixoloji əsaslarının da öyrənilərək sistemə salınması öz əksini tapmışdır. Yarımfəsildə islam dəyərlərindən istifadə etməklə yeniyetmələrin elmi dünyagörüşlərinin pedaqoji əsasları ayrıca təqdim edilir. Yarımfəsildə göstərilir ki, islam dəyərlərindən istifadə etməklə yeniyetmələrin elmi dünyagörüşlərinin formalaşdırılmasının pedaqoji əsasları deyəndə aşağıdakılar nəzərdə tutulur:

1. Yeniyetmələrin elmi dünyagörüşlərinin formalaşdırılması prosesində onların yaş xüsusiyyətlərinin nəzərə alınması.
2. Yeniyetmələrin elmi dünyagörüşlərinin formalaşdırılması prosesində onların fərdi xüsusiyyətlərinin nəzərə alınması.
3. Yeniyetmələrin elmi dünyagörüşlərinin formalaşdırılması prosesində müvafiq pedaqoji prinsiplərə istinad edilməsi.
4. Təlim-tərbiyə prosesində yenitemələrin elmi dünyagörüşlərinin formalaşdırılması zamanı müvafiq pedaqoji tələblərin gözlənilməsi.
5. Hər hansı bir fənnin tədrisi zamanı yeniyetmələrə elmi dünyagörüşü aşılayan qanunauyğunluqların, ideya və anlayışların izah

edilməsi zamanı müvafiq ardıcıllllığın və mərhələlərin düzgün müəyyənləşdirilməsi.

Yarımfəsildə islam dəyərlərinə maraq göstərən şagirdlərinin maraqlarının, meyllərinin, hisslərinin və duyğularının məqsədyönlü olaraq psixoloji cəhətdən öyrənilməsinin elmi modeli verilir. Bu zaman inam və əqidənin psixoloji cəhətdən öyrənilməsi də vacib sayılır. Yarımfəsildə yeniyetmələrin zehni hisslərinin gücü ilə özlərinin "Real mən"inin, "İdeal mən"inin və "Sosial mən"inin axtarılması zamanı onlarda mənəvi cəhətdən saflaşma yaranması elmi cəhətdən əsaslandırılır. Yarımfəsil belə yekunlaşdırılır və belə qənaət hasil olur: yeniyetmələr elmi dünyagörüşü əldə etməyə cəhd göstərdikləri halda onları ciddi şəkildə müşahidə etmək çox düşündürür. Çünki islam dəyərlərindən qazandıqları elmi biliklər, yaxud əldə etdikləri milli-mənəvi keyfiyyətlər onların öz "mən"ini yaradır. Bu zaman onlarla çox ehtiyatlı olmaq lazımdır. Əks halda onların elmi dünyagörüşü qazanmağa olan meylləri azalır. Elə etmək lazımdır ki, yeniyetmələrin özləri öz "mən"lərinə dəyər verə bilsinlər. Belə olan təqdirdə yeniyetmələrdə çox zəruri hesab olunan mənəvi keyfiyyətlər üzə çıxır. Hansı ki, bu keyfiyyətlər sonradan onun öz "mən"ində ən yüksək əxlaqi normaların vəhdəti kimi təzahür edir. Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" və A.A.Bakıxanovun "Təhzibül-Əxlaq" əsərlərindəki ideyalara istinad edərək deyə bilərik ki, insanın bütün əxlaqi normaları saflaşdırıldıqdan sonra onun mənəviyyatı bütövləşir. Yəni insan mənəvi cəhətdən zənginləşir. Deməli, yeniyetmələrin elmi dünyagörüşlərinin və milli-mənəvi keyfiyyətlərinin formalaşdırılması üçün müəllimlərin, valideynlərin və tərbiyə işilə məşğul olanların ən vacib vəzifələrindən biri də bu işin pedaqoji və psixoloji əsaslarına istinad etmələrindən ibarətdir.

**"Təlim-tərbiyə prosesində islam dəyərlərindən istifadə etməklə yeniyetmələrin dünyagörüşünün formalaşdırılmasının imkanları və yolları**" adlanan ikinci fəslin birinci yarımfəsli ***"Pedaqoji eksperimentin təşkili prinsipləri"*** adlanır.Bu yarımfəsildə pedaqoji eksperimentin təşkili prinsipləri, mərhələləri müəyyənləşdirilir və eksperimental və kontrol siniflərdə həyata keçiriləcək işlərin məzmunu şərh edilir.

Fəslin ***"Təlim prosesində yeniyetmələrin dünyagörüşünün formalaşdırılması zamanı islam dəyərlərindən istifadənin imkanları"*** adlanan ikinci yarımfəslində V-IX siniflərdə humanitar fənlərin tədrisində islam dəyərlərindən istifadə etməklə şagirdlərin dünyagörüşlərinin formalaşdırılmasının səmərəli yolları göstərilir. Həmin səmərəli yollarla yeniyetmələrin elmi dünyagörüşlərinin formalaşdırılması eksperiment vasitəsilə sübuta

yetirilir. Bu zaman anket sorğularının aparılması spesifikası təqdim edilir. Öyrədici materiallardan sonra suallar qoyulur və inandırıcı cavablar alınır:

1. "Qurani-Kərim" haqqında nə bilirsiniz?

a) "Qurani-Kərim" nə vaxt və hansı tarixi şəraitdə yaranmışdır?

b) "Qurani-Kərim"də neçə ayə və neçə surə var?

c) Orada hansı surələr elmdən bəhs edir?

d) Hansı ayədə elm adamları haqqında söhbət gedir?

e) Quranın ayə və surələrində elmin hansı sahələrindən danışılır?

Bu situasiyada göstərilir ki, sorğu anketləri həm eksperimental, həm də kontrol siniflərin şagirdlərinə paylanmışdır. Fərziyyəmizə görə öyrədici materiallardan bəhrələnən şagirdlərin 85 faizi suallara düzgün cavab vermiş, 10 faizi qismən cavab vermiş, 5 faizi cavab verə bilməmişdir. Kontrol siniflərdə alınan cavablar eksperimental siniflərdən alınan cavablarla müqayisə edildikdə məlum olmuşdur ki, kontrol siniflərin şagirdlərindən yalnız 3 faizi suallara qismən düzgün cavab vermiş, 97 faizi isə cavab verə bilməmişdir. Müşahidələrimizi davam etdirərkən məlum oldu ki, kontrol siniflərdə suallara qismən düzgün cavab verən şagirdlərin heç biri həmin bilgiləri müəllimlərindən yox, Quran oxuya bilən və əsasəm mövhumatla məşğul olan valideynlərindən öyrənmişlər.

Yarımfəsildə təqdim edilən eksperimental iş eksperimental siniflərlə kontrol siniflərin müqayisəli təhlili ilə yekunlaşır: sonuncu anket sorğusu eksperimental və kontrol siniflərdə paralel olaraq aparılmışdır. Alınan nəticələr aşağıdakı cədvəllərdəki kimi olmuşdur.

Cədvəl 2.2.1

| №si | Eksperimental siniflər | Şag. sayı | Cavabların səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Tam cavab verdi | Yarımçıq cavab verdi | Cavab verə bilmədi |
| 1 | $IX^b$ (M)-1 | 25 | - | 5 | 20 |
| 2 | $IX^b$ (M)-1 | 25 | - | 3 | 20 |
| 3 | $IX^b$ (B)-2 | 24 | - | 4 | 20 |
| 4 | $IX^b$ (B)-2 | 25 | - | 5 | 19 |
| 5 | $IX^b$ (B)-3 | 23 | - | 4 | 19 |
| 6 | $IX^b$ (B)-3 | 25 | - | 5 | 20 |
| 7 | $IX^b$ (B)-4 | 21 | - | 3 | 18 |
| 8 | $IX^b$ (B)-4 | 20 | - | 3 | 17 |
| 9 | Cəmi faizlə | 188 | - | 34 | 151 |

Cədvəldən göründüyü kimi, eksperimental siniflərin şagirdlərinin 96 faizi suallara tam cavab vermiş, 2,5 faizi yarımçıq cavab vermiş, 1,5 faizi isə cavab verə bilməmişdir. Kontrol siniflərdə suallara verilən cavablar isə bunun əksinə olmuşdur. Suallara tam cavab verən demək olar ki, olmamışdır. Yeniyetmələrin 3 faizi yarımçıq cavab vermiş, 97 faizi isə cavab verə bilməmişdir.

Fəslin ***"Dərsdənkənar tədbirlərdə islam dəyərlərindən istifadə etməklə yeniyetmələrin elmi dünyagörüşünün formalaşdırılmasının imkanları və yolları"*** adlanan sonuncu yarımfəslində dərsdənkənar tədbirlərdə islam dəyərlərindən istifadə etməklə yeniyetmələrin dünyagörüşünün formalaşdırılması üçün hazırlanan öyrədici materialların tətbiqi imkanları şərh olunur. Gecələrdə, görüşlərdə, maraq kurslarında, fənn dərnəklərində, disputlarda həyata keçirilən eksperimental işin modeli yarımfəsildə öz əksini tapır.

Yarımfəsildə göstərilir ki, tədqiqatın fərziyyəsinin elmi xarakterinə əsasən hazırladığımız öyrədici materialın səmərəsini yoxlamaq üçün biz disputda iştirak edən eksperimental və dərsdənkənar tədbirlərdə iştirak etməyən kontrol sinfin şagirdləri ilə bir daha sorğu keçirdik.

Sorğu anketinə aşağıdakı suallar daxil edildi:

1. Azərbaycanın görkəmli mütəfəkkiri Məhəmməd Füzulinin hansı əsərində daha çox islam dəyərlərindən söhbət açılır?

2. İslam elmində və mədəniyyətində ən qiymətli dəyərlər hansılardır? Onların hər biri haqqında qısa məlumat verin.

3. İslam təqviminə görə Məhərrəm ayı necə gündür və həmin günlərdə hansı tarixi hadisə baş vermişdir?

4. Məhəmməd Peyğəmbərin yaratdığı Ərəb Əmirliyini ondan sonra kimlər idarə etmişdir?

5. Kərbəla faciəsi barədə nə bilirsiniz?

6. Kərbəla faciəsini Qarabağ faciəsi ilə müqayisə etmək mümkündürmü?

7. Fikrinizi tarixi faktlar əsasında müqayisəli şəkildə izah edin.

Bakı şəhərindəki məktəblərdə eksperimental və kontrol siniflərində apardığımız sorğunun əsas məqsədi disputda tətbiq olunan öyrədici materialın səmərəsini yoxlamaq idi. Bunun üçün tədqiqatın elmi fəziyyəsinin doğruluğunu sübuta yetirməkdən ötrü sorğudan aldığımız cavabları araşdırıb təhlil etməklə yanaşı, həm də onları qiymətləndirməyi qərara aldıq.

Sorğular araşdırılarkən məlum oldu ki, doğrudan da, eksperimental siniflərin şagirdləri kontrol siniflərin şagirdlərinə nisbətən suallara daha

düzgün, daha doğru və aydın cavab vermişlər. Cavablar təhlil edildikdən sonra eksperimentçi müəllimlərin iştirakı ilə yeniyetmələrin cavabları həm də qiymətləndirmişdir. Məlum olmuşdur ki, kontrol siniflərin hər birində 1 şagird yaxşı, 2 şagird kafi, qalan şagirdlər isə qeyri-kafi qiymət almışlar. Bunun əksinə olaraq eksperimental siniflərin heç birində qeyri-kafi qiymət alan şagird olmamış, şagirdlərin 80 faizi yaxşı-əla, yalnız 20 faizi kafi qiymət almışlar.

Alınan nəticələr aşağıdakı cədvəldə ümumiləşdirilmişdir.

Bakı şəhərinin 5 saylı məktəbi

Cədvəl 2.3.1.

| Siniflər | Şag. sayı | Cavabların qiymətləndirilməsi | | | |
|---|---|---|---|---|---|
| | | 2 | 3 | 4 | 5 |
| Kontrol siniflər | 24 | 21 | 2 | 1 | - |
| | 25 | 21 | 2 | 1 | - |
| Eksperimental siniflər | 23 | - | 3 | 10 | 10 |
| | 24 | - | 4 | 10 | 10 |

Yarımfəsil deyilənlər yekunlaşdırılaraq belə qənaət hasil olmuşdur: dərsdənkənar tədbirlərdə elmi-metodik prinsiplərə uyğun olaraq şagirdləri islam dəyərləri materialları ilə yaxından tanış etdikdə onların:

- yaradıcı fəallığı yüksəlir;
- həmin dəyərlərin elmi mahiyyətini, tarixini dərindən öyrənməyə olan maraqları artır;
- dünyagörüşləri formalaşır;
- əxlaqi cəhətdən saflaşmaq, mənəvi cəhətdən paklaşmaq meylləri özünü büruzə verir.

Dissertasiyanın sonunda tədqiqatla bağlı ümumiləşdirilmiş **nəticələr** və bir sıra tövsiyələr öz əksini tapır. Problemlə bağlı pedaqoji, psixoloji, fəlsəfi, dini və sosioloji ədəbiyyatın, proqram və dərsliklərin araşdırılması, məktəb təcrübəsinin öyrənilməsi, təhlili, aparılan müşahidələr və həyata keçirilən pedaqoji eksperimental və sınaq işləri aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

1. İslam dəyərləri yetişən nəslin nümayəndələri üçün müsəlman dünyasının və bütün türkdilli xalqların tarixini, ictimai-siyasi fəaliyyətini, qədim abidələrini, memarlıq nümunələrini, elmini, mədəniyyətini, incəsənətini öyrənmək üçün çox qiymətli mənbədir.

2. Keçmiş Sovetlər məkanında yetişən gənc nəslin ateizm tərbiyəsi geniş təbliğ olunmuş, nəticədə yeniyetmələr, Azərbaycan məktəbliləri islam dəyərləri barədə obyektiv elmi dünyagörüşü qazana bilməmişlər. Din yasaq edilmiş, məscidlərə, ziyarətgahlara, ocaqlara, o cümlədən müsəlman və türk millətlərinin ictimai-siyasi və mədəni həyatı ilə birbaşa bağlı olan müqəddəs yerlərə yaxınlaşmaq belə qadağan olunmuş, beləliklə də hər bir yeniyetmə gəncin milli məfkurəsi, mənəvi cəhətdən saflaşması və paklaşması yolunda maneələr yaranmışdır. Bunun əksinə olaraq bütün xristian kilsələri bərpa edilmiş, işləmiş, uşaqlar, yeniyetmələr, gənclər, "kilsə günü" kilsəyə gedərkən kilsə xoruna qulaq asmış, keşişi dinləmiş və ibadət etmişlər.

3. İslam dəyərlərinin pedaqoji prosesə gətirilməsi yetişən nəslin nümayəndələrinin öz kökünə qayıtmasına şərait yaradır, onların tarixi yaddaşını təzələyir və onları mənəvi cəhətdən saflaşdırır.

4. İslam dəyələri ilə bağlı obyektiv məlumatların verilməsi, onların elmi mahiyyətinin düzgün aydınlaşdırılması yetişən gənc nəslin, xüsusilə yeniyetmələrin dünyagörüşünün formalaşmasına xüsusi şərait yaratmış olur.

5. Təlim prosesində yeniyetmələrin elmi dünyagörüşünün formalaşdırılması prosesində hər şeydən əvvəl, onlara psixoloji cəhətdən düzgün yanaşılması, onların maraq-meyllərinin, qabiliyyətlərinin, qavrayış tərzinin, təfəkkür və təxəyyül səviyyəsinin üzə çıxarılması vacibdir.

6. Ümumtəhsil fənləri mürəkkəb və çoxsaylı bir proses olmaqla bir çox funksiya və vəzifələri yerinə yetirir. Onlar ən mühüm ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də elmi dünyagörüşünün formalaşmasında əhəmiyyətli dərəcədə rol oynayır.

7. Elmi dünyagörüşünün formalaşması şəxsi keyfiyyətlərlə yanaşı, cəmiyyətin inkişaf səviyyəsi, adət-ənənələr, sosial mühit, mənəvi dəyərlər sistemindən də asılıdır. Sosial, mədəni inkişaf səviyyəsi ayrı-ayrı şəxslərin dünyagörüşünün əhatəliliyi və tamlığını şərtləndirir.

8. Dünyagörüşünün keyfiyyət göstəriciləri onun nə dərəcədə sosial motivlərlə, ictimai mənafe ilə şəxsi maraqların üst-üstə düşməsi dərəcəsi ilə ölçülür. Bura dünyagörüşünün sistemliliyi, məntiqi ardıcıllığı, nəzəri biliklərlə praktik fəaliyyətin uzlaşdırılması da aid edilir.

9. Dünyagprüşünün formalaşmasında fəaliyyət növləri xüsusilə təlim fəaliyyəti xüsusi rol oynayır. Lakin bu, ictimai məzmun kəsb etdikdə daha mötəbər sayılır.

10. Şəxsiyyətin sosial oriyentasiyası, özünü hansı səviyyədə cəmiyyətin üzvü hesab etməsi, identifikasiyası, gələcək statusunu hansı

səviyyədə dərk etməsi dünyagörüşünün formalaşdırılmasından çox asılıdır. Ona görə ki, yeniyetmələrin dünyagörüşünün mühüm keyfiyyət formalaşdırması yeni insanın tərbiyəsi deməkdir.

11. Dünyagörüşünün formalaşması sosial amillər, qarşılıqlı münasibətlər, ünsiyyət prosesi, şəxsiyyətin identifikasiyası və refleksiyadan çox asılıdır. Bunların məcmusu təfəkkür tərzini, şəxiyyətin istiqamətlərini, əqidə, inam və bunların kompleks təsiri isə dünyagörüşü formalaşdırır.

12. Humanitar fənlərin tədrisi prosesində yeniyetmələrə islam dəyərləri ilə bağlı verilən məlumatlar bir tərəfdən onların yaradıcı fəallığını artırır, digər tərəfdən onlarda inam, əqidə hissləri formalaşdırır ki, bunlar da bütövlükdə yetişən gənc nəslin sağlam elmi dünyagörüşünüm yaranmasına kömək edir. Hazırladığımız metodika isə bu sahədə çalışan müəllimlərə metodik köməklik göstərmişdir. Eksperimental məktəblərdə keçirilən seminar, müşavirələrin köməyilə humanitar fənləri tədris edən müəllimə təklif etdiyimiz metodika hazırlanıb tətbiq edilmişdir. Müəllimlər tətbiq edilən didaktik prinsiplərin, üsulların priyom və yolların nəzəri və praktik cəhətdən faydalı olduğunu göstərmiş və öz iş təcrübələrində istifadə etdiklərini qeyd etmişlər.

13. Dəqiq elmlərin və eləcə də təbiət elmlərinin tədrisində də islam dəyərlərindən istifadə olunması yeniyetmələrin mövcud qanunların qanunauyğunluqların, teoremlərin, riyazi sistemlərin mənşəyi, eləcə də atmosferin, biosferin, hidrosferin, litosferin yaranması, qnesioloji-tarixi mahiyyəti, öyrənilməsi qaydaları, mərhələləri barədə hər cür təsəvvürə malik olurlar. Bu da onlarda ilkin tədqiqatçılıq qabiliyyətlərini üzə çıxarır. Beləliklə, şagirdlər hərətəfli elmi dünyagörüşü qazanırlar.

14. Dərsdənkənar tədbirlərdə dəyərlər ilə bağlı həyata keçirilən müxtəlif formalı tədbirlər şagirdləri islam dəyərləri ilə yaxından tanış edir. Həmin tədbirlərdə “Qurani-Kərim”dəki müdrik kəlamları, Məhəmməd Peyğəmbərin düzlük, doğruçuluq, yoldaşlıq, dostluq, sədaqətlilik, halallıq, ədalətlilik, humanistlik, ətraf mühiti sevmək, quşları, heyvanları, ağacları, bitkiləri, yaşıllıqları, bulaqları, çayları, dənizləri mühafizə etmək; yalanla, böhtanla, fitnə-fəsadla, oğurluqla, riyakarlıqla barışmazlıq, onlara qarşı amansız olmaq, haqq işini müdafiə etmək, ataya, anaya, bacı qardaşlara, böyüklərə, elm adamlarına ehtiram göstərməklə bağlı dəyərli fikirlərlə tanış olan yeniyetmə şagirdlər müəyyən elmi dünyagörüşə yiyələnməklə saflaşır, paklaşır və mənəvi cəhətdən zənginləşirlər.

15. Kütləvi tədbirlərdə istifadə olunan islam dəyərləri yeniyetmələrin ideya-siyasi, əməksevərlik, işgüzarlıq, iqtisadi, estetik, fiziki, ekoloji, hüquq və əqli tərbiyəsinin günün tələbləri səviyyəsində

inkişafına şərait yaradır. Belə tədbirlərdə iştirak edən yeniyetmələr islam dəyərləri ilə bağlı müvafiq elmi dünyagörüşə yiyələnirlər.

16. İslam dəyərləri şagirdləri müsəlman və türk dünyasının adətləri, ənənələri, əqidə bütövlüyü, ibadət qaydaları, Allaha, Qurana, peyğəmbərə (s) etiqad etməyin vacibliyi ilə bağlı müvafiq dünyagörüşü qazanmağa və onları həyatda düzgün mövqe tutmağa istiqamətləndirir.

17. İslam dəyərlər ilə bağlı hazırladığımız iş sistemi təlim-tərbiyə prosesində şagirdləri elmi cəhətdən əsaslandırılmış mütərəqqi ideyalar və müdəalarla tanış edir. Hansı ki, bu ideya və müddəalar onları:

- islamiyyətin elmi mahiyyəti ilə yaxından tanış edir;
- ilahiyyat elminin fəlsəfi, məntiqi köklərini öyrənməyə sövq edir;
- öz millətinin və xalqının tarixini, coğrafiyasını, florasını, faunasını öyrənməyə olan marağını artırır;
- islam dininə yad olan ünsirləri pisləməyə, dini fanatizmi, tərki dünyalığı, mövhumatçılığı tənqid etməyə hazırlayır.

Tədqiqat bir sıra **təklifləri** də irəli sürməyə imkan verir:

1. İslamdakı elmi dəyərlərin proqram və dərsliklərə gətirilməsi faydalı olar. Bu dəyərlər şagirdlərin elmi dünyagörüşlərinin formalaşmasında müsbət rol oynayar.

2. İslam dəyərlərini sevən şagirdlərlə ateist fikirli şagirdlərin açıq və demokratik diskusiyalarının təşkili faydalı olar.

3. Məktəb direktorları, onların müavinləri, sinif rəhəbrləri özləri üçün illik iş planları tərtib edərkən həmin iş planında "Təlim-tərbiyə prosesində islam dəyərlərindən istifadənin başlıca istiqamətləri" bölməsinin olması məsləhətdir.

4. Məktəblilər üçün islam dəyərlərində elm, elm adamları, tərbiyə, əxlaq, mənəviyyat problemləri kimi məsələləri özündə əks etdirən dərsdənkənar oxu kitablarının və dərs vəsaitlərinin hazırlanması yaxşı nəticə verər.

5. Televiziyalarda "İslam dəyərləri və məktəblilər" mövzusunda xüsisi buraxılışların hazırlanlb təqdim olunması yaxşı olar.

6. Türkiyə Cümhuriyyətinin və eləcə də Orta Asiya (Türküstan) respublikalarının islam dəyərlərinin şagirdlərə təlqin edilməsi təcrübəsinin öyrənilməsi və həmin təcrübənin müsbət nəticələrinin Azərbaycanın ümumtəhsil məktəblərində tətbiq edilməsi çox böyük fayda verər.

Dissertasiya ilə bağlı müəllifin aşağıdakı **əsərləri** nəşr edilmişdir:

1. İslam dəyərləri anlayışının elmi-pedaqoji mahiyyəti // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri cild: 9. 2013, №1, s.34-37

2. İslam dəyərlərinə dair əsas mənbələr və onların elmi-pedaqoji əhəmiyyəti // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri cild: 9. 2013, №4, s.53-57

3. Öğrencilerin dünyagörüşünün oluşmasında yaratıcı dramadan faydalanma / II. International Scienttific Conference Of Young Reseachers, Bakı, 2014, s.439

4. Üstün yetenekli çoçukların sırdaşı dil gelişimi / II. International Scienttific Conference Of Young Reseachers. Bakı, 2014, s.432

5. Yaradıcı dramalar yeniyetmələrin dünyagörüşünün formalaşdırılmasının mühüm vasitəsi kimi / Naxçıvan MR 90 illik yubileyi ilə əlaqədar "Təhsil kurikulumları: nəzəri problemlər" mövzusunda keçirilmiş Respublika konfransının materialları. Naxçıvan, 2014, s.69-71

6. İslam dəyərləri və yeniyetmələrin elmi dünyagörüşünün formalaşmasında onların rolu // Milli Pedaqogika Məktəbi, 2014, №1, s.64-69

7. Dünyagörüşü anlayışının mahiyyəti. Bakı Slavyan Universiteti. Elmi Əsərlər. 2013, №2, s.30-38

8. Научно-педагогическая сущность понятия «исламские ценности. Вестник Московского Государственного Педагогического Университета , 2014, №2, с.78-184

9. Heydər Əiyev irsindən istifadə etməklə yeniyetmələrin dünyagörüşünü formalaşdırılması / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş "Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri" mövzusunda beyməlxalq elmi konfransın materialları. Bakı, 2014, s.481- 488

10. Yeniyetmələrin elmi dünyagörüşünün formalaşdırılmasının mühüm vasitəsi kimi y aradıcı dramadan istifadənin imkanları // Pedaqoji Universitet Xəbərləri. 2014, №3

**Эрташ Софуоглу**

## Система работы по использованию исламских ценностей в формировании мировоззрения подростков

## РЕЗЮМЕ

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, цель и задачи, объект и предмет исследования, дается степень изученности темы, раскрывается новизна работы и апробация ее основных положений.

Первая глава, названная «Сущность, содержание, цель и задачи исламских ценностей в формировании мировоззрения подростков» состоит из 4-х разделов. В данной глава раскрывается суть исследуемой проблемы, ее интерпретация в научно-теоретических источниках. В этой главе анализируется педагогическая практика относительно формирования мировоззрения подростков и дается педагогическо-психологическое объяснение вопроса.

Вторая глава называется «Возможности и способы формирования мировоззрения подростков с использованием исламских ценностей в учебно-воспитательном процессе» и состоит из 3-х разделов. В этой главе показано содержание педагогического эксперимента, описаны правила присвоения исламских ценностей путем педагогического эксперимента.

В учебном процессе в процессе формирования мировоззрения подростков включаются в систему объекты использования исламских ценностей.

В заключении даются выводы и обобщения.

**Ertash Sofuoglu**

## The system works on the use of Islamic values in shaping the worldview of teenagers

## SUMMARY

The dissertation consists of an introduction, two chapters, a conclusion and a list of used sources.

The introduction deals with the actuality of the topic, object and subject of the work, its aim and the tasks, sources of the research, scientific novelty, theoretical and practical significance as these risen to defense.

The first chapter is entitled "The essence of the content, purpose and objectives of Islamic values in shaping the worldview of teenagers" consists of 4 sections. This chapter reveals the essence of the investigated problem, and its interpretation of the scientific and theoretical sources. This chapter analyzes the pedagogical practice in relation to forming worldview of teenagers and the given pedagogical-psychological explanation of the issue.

The second chapter is entitled "Possibilities and methods of forming the worldview of teenagers with Islamic values in educational process" and it consists of 3 sections. This chapter shows the content of the pedagogical experiment described assignment rules of Islamic values by the pedagogical experiment.

In educational process in the formation of teenagers worldview are included into the system of usage of Islamic values.

The conclusion includes basic results of research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Софуоглу Эрташ Гасан оглы**

# Система работы по использованию исламских ценностей в формировании мировоззрения подростков

**5804.01** – общая педагогика, история педагогики и образования

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Б А К У - 2014**